

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 136 (24.023)

22 iyul 2022-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

İyulun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bolqarıstan Respublikasının Baş naziri Kiril Petkov ilə təkbətək görüşü keçirilib. Prezident İlham Əliyev görüşdə bildirib ki, Bolqarıstan ilə Azərbaycan strateji tərəfdaşdırlar. Nisbətən yaxın vaxtda müvafiq Bəyannamə imzalanıb. Bu, olduqca yüksək səviyyəli əməkdaşlıqdır. Əlbəttə, strateji əməkdaşlıq bir çox sahələri, o cümlədən enerji təhlükəsizliyini əhatə edir. Bolqarıstanın Baş naziri Kiril Petkov deyib ki, hər iki ölkə Avropa İttifaqı Şurasının üzvü kimi birlikdə olsa üfüqlər çox geniş və perspektivli görünəcək.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bolqarıstan Respublikasının Baş naziri Kiril Petkov ilə geniş tərkibdə görüşü keçirilib. Görüşdə çıxış edən Prezident İlham Əliyev deyib ki, qarşılıqlı maraqdoğuran bir çox məsələlərlə bağlı cənab Baş nazirlə çox yaxşı müzakirə oldu və tərəfdaşlığın gücləndirilməsi üçün imkanlar müəyyən edildi. Bolqarıstanın Baş naziri Kiril Petkov deyib ki, enerji sektorunda və ondan başqa sahələrdə imkanlar müzakirə edilib, belə nəticəyə gəlindi ki, texnologiya, logistika, Avropaya ixrac, enerji daşıyıcılarının paylanması kimi sahələrdə bir çox işlər görülə bilər.

İyulun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bolqarıstan Respublikasının Baş naziri Kiril Petkov ilə birgə işçi şam yeməyi olub.



## 1990-cı il 22 iyul:
## Vətənə qayıdış, müstəqillik və inkişaf yolunun başlanğıc günü



*Naxçıvan Azərbaycanın dövlətçilik tarixində çox mühüm yer tutur. Milli idarəçilik ənənələrinin yaşadıldığı, birlik və həmrəyliyin dəyişməz ünvanı olan bu qədim diyar, həm də tarixin yaddaşına Azərbaycan xalqının Qurtuluşuna gedən Böyük Yolun başlanğıcı kimi düşmüşdür. 1990-1993-cü illərdə görkəmli dövlət xadimi Heydər Əliyev xilaskarlıq missiyasına, müstəqil Azərbaycanın dövlət quruculuğu prosesinə məhz Naxçıvandan başlamışdır.*

Ötən əsrin 80-ci illərinin sonunda ulu öndər Heydər Əliyevin SSRİ rəhbərliyindən istefa verməsi qısa müddət sonra ermənilərin illərdir, Azərbaycan torpaqlarına qarşı iddialarının yenidən baş qaldırmasına şərait yaratmış, nəticədə, Naxçıvan Muxtar Respublikasının sərhədyanı yaşayış məntəqələri davamlı erməni təcavüzünə məruz qalmışdır. Havadarlarının dəstəyi ilə edilən silahlı hücumlar əhalinin dincliyini əlindən almış, muxtar respublika blokada vəziyyətində yaşamağa məcbur edilmişdir. Məhz belə bir çətin dövrdə dahi şəxsiyyət Heydər Əliyevin 1990-cı il iyulun 20-də Moskvadan Bakıya, 2 gün sonra isə muxtar respublikaya gəlməsi naxçıvanlılara böyük ümid və sevinc bəxş etmişdir. Eyni zamanda Vətənə bu qayıdış xalqımızda Azərbaycanın bütün bəlalardan xilas olacağına da ümidləri artırmışdır. Xalq Azərbaycanın, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanın bu çətin vəziyyətdən çıxmasının yalnız ulu öndər Heydər Əliyevin sayəsində mümkün olacağını bilirdi. Təsadüfi deyil ki, zəngin dövlətçilik təcrübəsinə malik olan qüdrətli şəxsiyyətin, ömrünü Vətəninə, xalqına həsr edən əvəzedilməz liderin doğulub boya-başa çatdığı diyara gəlişi əhali üçün əsl bayrama çevrilmişdir. Sonralar ümummilli liderimiz bu barədə demişdir: ***"1990-cı ilin yayı idi. Mən buraya gələrkən Naxçıvanı çox çətin bir vəziyyətdə gördüm. Amma, eyni zamanda özümü çox rahat hiss etdim. Moskvada məni təqib edirdilər. Hətta yanvar hadisələrindən sonra hərəkətlərimə görə mənə qarşı repressiya planları hazırlanmışdı və onları həyata keçirmək istəyirdilər. Bakıya gələndə xalq tərəfindən mənim gəlişim böyük ruh yüksəkliyi ilə qəbul olundu, lakin hakimiyyətdə olan ayrı-ayrı şəxslər tərəfindən Bakıda yaşamağıma imkan verilmədisə də, mən Naxçıvana gələndə Naxçıvan ayağa qalxdı, Naxçıvan məni qucaqladı, bağrına basdı. Son illər çəkdiyim bütün əzab-əziyyəti unutdum. Görünür, mənim Naxçıvana gəlişim taleyin işi imiş".***

Naxçıvana gəldikdən 2 ay sonra – 1990-cı il sentyabrın 30-da Azərbaycan və Naxçıvan parlamentlərinə keçirilən seçkilərdə xalq görkəmli dövlət xadimi Heydər Əliyevin namizədliyini yekdilliklə irəli sürərək muxtar respublikanın, ümumilikdə isə Azərbaycanın qurtuluşunu məhz ümummilli liderimizin yenidən siyasi hakimiyyətə qayıdışında gördü. Böyük şəxsiyyət 340 nömrəli Nehrəm Seçki Dairəsindən Azərbaycan parlamentinə, 2 nömrəli Seçki Dairəsindən isə Naxçıvan parlamentinə deputat seçildi. 1990-cı ilin 17 noyabrında Naxçıvan parlamentinin yeni tərkibdə keçirilən ilk sessiyası görkəmli dövlət xadiminin sədrliyi ilə öz işinə başladı. Həmin sessiyada "Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında", "Naxçıvan MR Ali Dövlət hakimiyyəti orqanı haqqında", "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında", "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" və başqa məsələlərlə bağlı tarixi qərarlar qəbul edildi. Sessiya Naxçıvan MSSR adından "Sovet Sosialist" sözlərinin çıxarılması, Naxçıvanın Ali Sovetinin adını dəyişərək onun bundan sonra Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılması haqqında qərar qəbul etdi. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağı Naxçıvanda qaldırıldı. Həmin dövrdə bu cür qətiyyətli addımları, ancaq ulu öndər ata bilərdi. O çətin günlərdə sakinlərlə bir yerdə olan ulu öndərə əhalinin sevgi və ehtiramı o qədər böyük idi ki, hər kəs dünya şöhrətli siyasətçinin muxtar respublikaya rəhbərlik etməsini istəyirdi. Buna görə də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1991-ci il sentyabrın 3-də keçirilən fövqəladə sessiyasında deputatların və iclas keçirilən binanın qarşısına toplaşan minlərlə insanın təkidi ilə ümummilli lider Heydər Əliyev Ali Məclisin Sədri seçildi. Bununla da Azərbaycan tarixində ulu öndərin adı ilə bağlı olan daha bir möhtəşəm səhifə açıldı. Sessiyadakı ilk çıxışında dahi şəxsiyyət öz taleyini xalqa tapşırdığını bildirərək demişdir: ***"Mən bu zamanın, bu dəqiqələrin, bu saatın hökmünü nəzərə almaya bilməzdim. ...Mən öz prinsiplərimə sadiq qalaraq Azərbaycanın, Naxçıvanın belə vəziyyətində, çətin günündə, dövründə mənim üzərimə düşən vəzifənin ifasından geri çəkilə bilməzdim. Mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini, yəqin ki, indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm".***

Ali Məclisin Sədri kimi ümummilli lider Heydər Əliyev real düşmən təcavüzünə məruz qalan, blokada şəraitində yaşayan Naxçıvanın, ilk növbədə, müdafiə qabiliyyətini gücləndirməyə başladı. 1991-ci il sentyabrın 7-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisi "Naxçıvan Muxtar Respublikası Dövlət Milli Müdafiə Komitəsinin yaradılması haqqında" Qərar qəbul etdi. Bu Qərar Naxçıvanın müdafiə qabiliyyətinin gücləndirilməsi istiqamətində atılan ilk addım idi. Sonrakı dövrlərdə qəbul edilmiş tarixi qərarlarla Naxçıvanda yerləşən sovet qoşunlarına məxsus hərbi texnika və silahların muxtar respublikada saxlanması təmin olundu, ölkəmizdə ilk Milli Ordu yaradıldı, Naxçıvanın müdafiə potensialı gücləndirildi və beləliklə, bugünkü qüdrətli Azərbaycan Ordusunun əsası bu qədim diyarda qoyuldu. Dahi şəxsiyyət o dövrdə həm də Azərbaycan xalqının milli həmrəyliyinin ideoloji əsaslarını yaradaraq dünya azərbaycanlılarını bir ideya ətrafında – Vətənə və xalqa xidmət uğrunda birləşməyə səslədi. 1991-ci il dekabrın 16-da Ali Məclis tərəfindən "31 Dekabr – Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında" Qərarın qəbul edilməsi xüsusi əhəmiyyətə malikdir. Eyni zamanda 20 Yanvar faciəsinə, Xocalı soyqırımına siyasi qiymət verilməsi tələbi də ilk dəfə ulu öndər Heydər Əliyev tərəfindən gündəmə gətirildi.

Təcavüzkar Ermənistanın blokadaya saldığı, mərkəzi hakimiyyətin isə biganə münasibət göstərdiyi Naxçıvan Muxtar Respublikasında xarici iqtisadi əlaqələrin qurulması sahəsində də mühüm addımlar atılmalı, blokadanın vurduğu ciddi zərbələrin qarşısının alınması istiqamətində tədbirlər həyata keçirilməli idi. Bu məsələni, xüsusilə diqqətdə saxlayan ulu öndərimiz 1992-ci ildə İran İslam Respublikasına və Türkiyə Cümhuriyyətinə səfərlər etdi, bu zaman keçirilən görüşlərdə iqtisadi sahədə əməkdaşlığa dair protokollar imzalandı. Həmin protokollara əsasən hər iki dövlətlə iqtisadi, mədəni, təhsil və digər sahələrdə qarşılıqlı münasibətlər quruldu, Araz çayı üzərində "Ümid" körpüsü tikilib istifadəyə verildi, gömrük-keçid məntəqələri fəaliyyətə başladı.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Müstəqilliyə gedən yol Heydər Əliyevin rəhbərliyi ilə məhz Naxçıvanda başlamışdır... Məhz Naxçıvanda ulu öndərin rəhbərliyi ilə aparılan siyasət nəticəsində Naxçıvanın ərazi bütövlüyü təmin edilmişdir... Azərbaycanın müasir siyasi sistemi məhz Naxçıvanda yaradılmışdır".***

Muxtar respublikada aparıcı sahələrdən olan kənd təsərrüfatının dirçəldilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi də həmin illərdə diqqət mərkəzində idi. Ulu öndərin təşəbbüsü ilə Ali Məclisin 1992-ci il aprelin 6-da keçirilən sessiyasında "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında" və "Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında" qərarlar qəbul edildi. Bu addım muxtar respublika iqtisadiyyatının aparıcı sahələrindən biri olan kənd təsərrüfatının inkişafını şərtləndirən mühüm amilə çevrildi və beləliklə, Azərbaycanda torpaq islahatına da məhz ilk dəfə Naxçıvandan başlanıldı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov o dövrdə Naxçıvanda iqtisadiyyatın inkişafı istiqamətində həyata keçirilən tədbirlərdən bəhs edərkən demişdir: ***"Bu dövrdə müstəqilliyin bərpası istiqamətində görülən tədbirlər təkcə siyasi müstəvidə getmirdi. Yeni iqtisadi təfəkkürə söykənən, bazar iqtisadiyyatı tələblərinə uyğunlaşdırılan iqtisadi model də formalaşdırılmış, aqrar islahatların həyata keçirilməsi barədə tarixi qərarlar qəbul edilmiş, blokadanın vurduğu ziyanın aradan qaldırılması üçün tədbirlər görülmüşdü. Qonşu Türkiyə və İranla iqtisadi, mədəni, humanitar əlaqələr yaradılmışdı. Bu dövrün Naxçıvanı yenidən 1969-cu ildən başlanan Heydər Əliyev quruculuq xəttinə, inkişafın Heydər Əliyev yoluna qayıdan ilk region olmaqla Azərbaycanda böyük nümunə gücünə malik idi".***

Ardı 2-ci səhifədə

Təbii ki, görkəmli dövlət xadiminin muxtar respublikanın xilası, müstəqil dövlətçilik naminə gördüyü işlər ozamankı Azərbaycan iqtidarı tərəfindən qısqanclıqla qarşılanırdı. Bütün bunlar bir məqsədə – Heydər Əliyev ideyalarının, xilaskarlıq missiyasının qarşısını almağa xidmət edirdi. Lakin buna nail olmaq mümkün deyildi. Ona görə ki, bütün Azərbaycan Heydər Əliyev ideyalarının təntənəsinə, qələbəsinə inanır, öz nicatını yalnız bu yolda görürdü. Azərbaycan xalqının güvəncinə çevrilən ümummilli liderimizə 1992-ci ilin 16 oktyabrında ölkə ziyalıları “Azərbaycan sizi gözləyir” adlı tarixi müraciət etdilər. Xalqın istək və arzularının, son ümidlərinin ifadəsi olan bu müraciətə ümummilli lider Heydər Əliyev həmin ayın 24-də mətbuatda dərc olunmuş “Yeni, müstəqil Azərbaycan uğrunda” sərlövhəli cavab məktubunda deyirdi: ***“Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan siyasi partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə partiya Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər”.*** Beləliklə, Azərbaycanın müxtəlif bölgələrindən Naxçıvana gələn 550-dən artıq nümayəndənin iştirakı ilə 1992-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Blokada çətinlikləri şəraitində yaşayan Naxçıvanda təməli qoyulan bu partiya qısa müddətdə öz sıralarında milli ruhlu insanları birləşdirərək Azərbaycançılıq ideyalarına mənsub kütləvi siyasi təşkilata çevrildi.

Bu, bir reallıqdır ki, ümummilli lider Heydər Əliyevin Naxçıvana qayıtması, Ali Məclisin Sədri seçilməsi və buradakı fəaliyyəti təkcə muxtar respublikada yox, bütövlükdə Azərbaycanda ölkəmizin parlaq gələcəyinə böyük inam hissi yaratmışdı. Məhz buna görədir ki, ölkəmizin digər regionlarında yaşayan insanlar xalqımızın böyük oğlu Heydər Əliyevə teleqramlar, məktublar göndərir, xalqın üzləşdiyi bəlaların məhz onun müdrik və uzaqgörən siyasəti nəticəsində həll olunacağına inamlarını ifadə edirdilər. Bu məktub və teleqramlarda o zaman Azərbaycanı “idarə edənlərin” özbaşınalığından, siyasi səriştəsizliklərindən, xalqın dərdinə şərik çıxmamalarından bəhs olunurdu. Görkəmli dövlət xadimi təkcə Naxçıvanda yox, Azərbaycanın digər regionlarında yaşayan həmvətənlərimizin də dərdlərinə şərik olmuş, onların problemlərinin həllinə çalışmışdır.

1993-cü ildə Azərbaycanın xaosa sürükləndiyi, parçalanma, yoxolma təhlükəsi ilə üz-üzə qaldığı bir dövrdə xalqımız milli dövlətçiliyi qorumaq və vətəndaş müharibəsinin ağır fəsadlarından qurtulmaq üçün ümummilli liderimizi Naxçıvandan Bakıya dəvət etdi. Ulu öndər Heydər Əliyevin Naxçıvandan Bakıya qayıdışı xalqımızın çoxəsrlik tarixinə möhtəşəm hadisə kimi daxil oldu. 15 iyun 1993-cü il Azərbaycan dövlətinin tarixinə Milli Qurtuluş Günü kimi həkk edildi. Ümummilli lider qısa müddətdə ölkədə baş qaldırmış vətəndaş qarşıdurmasının, xaos və anarxiyanın qarşısını aldı, qanunun aliliyi təmin olunaraq demokratik prinsiplərə əsaslanan Konstitusiyamız qəbul edildi, müasir idarəçilik sistemi yaradıldı, vətəndaş həmrəyliyi bərpa olundu, mühüm iqtisadi layihələr reallaşdırıldı, ölkənin beynəlxalq aləmdə nüfuzu möhkəmləndi, bütün sahələrdə böyük uğurlar qazanıldı. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kimi nəhəng neft-qaz layihələrinin əfsanədən reallığa çevrilməsi müstəqil Azərbaycanın gələcəyi, Azərbaycan xalqının xoşbəxtliyi uğrunda həyata keçirilmiş tədbirlər kimi tarixə düşmüş, ölkənin beynəlxalq aləmdə nüfuzu möhkəmlənmiş, bütün sahələrdə böyük uğurlar qazanılmışdır. Ötən illər bir daha təsdiq etdi ki, Azərbaycanın nicatı və tərəqqisi məhz ulu öndər Heydər Əliyev ideyalarında, Heydər Əliyev yolundadır.

Bu gün Heydər Əliyev siyasi xəttinin ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan regionun lider dövlətinə çevrilmiş, azadlıq və müstəqilliyimiz daimi və əbədi olmuş, ölkəmizin nüfuzu daha da artmışdır. Parlaq qələbəmizlə bitən 44 günlük Vətən müharibəsi də göstərdi ki, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünün təmin olunması ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan milli ideyalarımızın önündə gəlir. Görkəmli dövlət xadiminin ümummilli ideyaları Naxçıvanda da yeni inkişaf dövrünün başlanmasına rəvac vermiş, muxtar respublika bütün sahələr üzrə inkişaf edərək əsl tərəqqiyə qovuşmuşdur. Bu gün elmi, mədəni, iqtisadi uğurları ilə hər kəsi heyrətləndirən Naxçıvan artıq ulu öndərin arzularının reallaşdığı diyardır. Bu reallığın təməlində isə dahi liderin siyasi xəttinə böyük ehtiram və sədaqət dayanır. Ölkə Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***“Ulu öndərin rəhbərliyi altında ölkəmiz böyük inkişaf yolu keçmişdir. Bu gün bütün sahələrdə, bütün bölgələrdə və o cümlədən Naxçıvanda Heydər Əliyev siyasəti uğurla icra edilir. Bu siyasət milli maraqlarımızın müdafiə edilməsi üçün yeganə düzgün siyasətdir. Ölkəmizin dinamik inkişafı göstərdi ki, bu siyasətə alternativ yoxdur”.***

**“Şərq qapısı”**

# Naxçıvanda mətbuat hərtərəfli qayğı ilə əhatə olunub




*Hər bir xalqın milli şüur səviyyəsinin əsas göstəricilərindən biri də onun mətbuatıdır. 147 il əvvəl böyük maarifçi-publisist, ictimai xadim Həsən bəy Zərdabinin nəşr etdirdiyi “Əkinçi” qəzeti ilə əsası qoyulmuş Azərbaycan milli mətbuatı da həqiqət carçısı, mütərəqqi ideyalar tərənnümçüsü olmaqla milli və bəşəri dəyərlərin təbliğində mühüm rol oynamışdır.*

XX əsrin əvvəllərində mətbuat orqanları Azərbaycanda milli azadlıq ideyalarının əsas istiqamətverici qüvvəsini təşkil etmiş, milli oyanış, milli özünüdərk proseslərinin aparıcı vasitələrindən biri olmuşlar. Lakin ötən əsrin 20-ci illərinin əvvəllərində Azərbaycanın zorla sovetləşdirilməsi ilə milli mətbuatımız da sovet diktaturasının siyasi-ideoloji nəzarəti altında fəaliyyət göstərmişdir. Yalnız ümummilli lider Heydər Əliyev 14 iyul 1969-cu ildə Azərbaycanda siyasi hakimiyyətə gəldikdən sonra milli demokratik mətbuatın başlıca prinsipləri formalaşmağa başlamışdır. Bu illərdə ulu öndərin xidmətləri sayəsində mətbuatda milli dəyərlərimizin, adət-ənənələrimizin, zəngin tarixi-mədəni irsimizin təbliği istiqamətində əsaslı dönüş yaranmışdır. ***“Demokratiyanın, siyasi plüralizmin və vətəndaş cəmiyyətinin əsas atributlarından hesab olunan söz və mətbuat azadlığının başlıca daşıyıcıları kütləvi informasiya vasitələridir”***, – deyən ümummilli liderin uzaqgörənliyi sayəsində müstəqillik illərində ölkə mətbuatında söz, fikir və əqidə azadlığının təmin olunması üçün müvafiq qanunvericilik aktlarında dəyişikliklər aparıldı, Azərbaycan bu sahədə mövcud olan beynəlxalq konvensiyalara və sazişlərə qoşuldu. Azərbaycan Respublikasının Konstitusiyasında vətəndaşların söz və fikir azadlığı, məlumat toplamaq, öz rəyini sərbəst ifadə etmək, yaradıcılıq azadlıqları təsbit olundu. İnformasiya axtarmaq, əldə etmək, hazırlamaq, ötürmək, istehsal etmək və yaymaq hüququna dövlət tərəfindən təminat verildi. Ulu öndər Heydər Əliyevin “Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında” 1998-ci il 6 avqust tarixli Fərmanı ilə ölkəmizdə senzura ləğv edildi, mətbuat cəmiyyətin dinamik şəkildə demokratikləşməsinə təsir edən qüdrətli vasitəyə çevrildi. Görkəmli dövlət xadimi mətbuatın maddi-texniki bazasının möhkəmləndirilməsinə, iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına da xüsusi qayğı göstərirdi.

Ümummilli lider jurnalist kollektivləri ilə görüşlərində mətbuatın problemlərini, mövcud nöqsanlarını da qeyd edir, dəyərli tövsiyələr verir, kütləvi informasiya vasitələrinin, ayrı-ayrı jurnalistlərin dövlət quruculuğu, xalqın maarifləndirilməsi və Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasındakı xidmətlərini yüksək qiymətləndirərək deyirdi: ***“Mətbuat demokratiyanı dərinləşdirən, siyasi inkişafa təkan verən qüdrətli vasitədir. ...O, həyatın güzgüsü, həqiqətin carçısı olmalıdır, insanları yüksək ideallar uğrunda mübarizəyə səsləməli və səfərbər etməlidir”.***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu ənənələrə sadiq qalaraq kütləvi informasiya vasitələrinin inkişafına şərait yaradılmasını prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirmişdir. 2003-cü ildən başlayaraq ölkəmizdə mətbuat orqanlarının maddi-texniki bazasının gücləndirilməsi və jurnalist əməyinin qiymətləndirilməsi sahəsində bir sıra fərman və sərəncamlar imzalanmışdır. Azərbaycan milli mətbuatının yubileylərinin dövlət səviyyəsində qeyd edilməsi, yubiley münasibətilə Azərbaycan mətbuat işçilərinin təltif olunması, onlara fəxri adlar verilməsi, habelə kütləvi informasiya vasitələrinə maliyyə yardımlarının göstərilməsi ölkəmizdə jurnalist əməyinin qiymətləndirildiyini və mətbuatın dövlət qayğısından kənarda qalmadığını bir daha təsdiq edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 2022-ci il 8 fevral tarixdə “Media haqqında” Azərbaycan Respublikasının Qanunu təsdiq olunmuşdur. Bu Qanun media sahəsində fəaliyyətin təşkilati, hüquqi və iqtisadi əsaslarını, həmçinin kütləvi informasiyanın əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımının ümumi qaydalarını müəyyən edir.

Ölkə Prezidenti cənab İlham Əliyev demişdir: ***“Azərbaycanda aparılan siyasi islahatların əsas mənası, məqsədi ondan ibarətdir ki, ölkəmiz hərtərəfli inkişaf etsin, ölkədə yaşayan hər bir vətəndaş bütün azadlıqlardan istifadə etsin. Azərbaycanda, o cümlədən mətbuat azadlığı da mövcuddur. Biz bu məsələdə çox ciddi addımlar atırıq. Söz azadlığının, mətbuat azadlığının təmin olunması bizim prioritet məsələmizdir və deyə bilərəm ki, Azərbaycan bu sahədə böyük uğurlara nail olmuşdur”.***

Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə əldə olunan inkişaf və yüksəliş kütləvi informasiya orqanlarını da əhatə etmiş, azad mətbuatın formalaşmasına şərait yaratmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasının dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında” 2000-ci il 29 mart tarixli Sərəncamı muxtar respublikanın kütləvi informasiya vasitələrinin fəaliyyətini genişləndirmiş, mətbuatın inkişafı sahəsində mühüm nailiyyətlər əldə edilmişdir. 2005-ci ildə Naxçıvan Mətbuat Şurasının, 2007-ci ildə isə Televiziya və Radio Şurasının yaradılması bu sahənin inkişafını keyfiyyətcə yeni mərhələyə yüksəltmişdir. 2010-cu ildə “Şərq qapısı” qəzeti redaksiyası və “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi üçün yeni binanın istifadəyə verilməsi və müasir mətbəə avadanlıqlarının quraşdırılması qəzetlərin günün tələblərinə uyğun nəşrinə şərait yaratmışdır. Muxtar respublikada bütün qəzet və jurnallar bu gün yüksək poliqrafik keyfiyyətlə nəşr olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları ilə mətbuat sahəsində çalışanların əməkhaqları artırılmış, əməyi ilə fərqlənən jurnalistlər fəxri adlara layiq görülmüşlər. Hazırda muxtar respublikada “Şərq qapısı” ilə yanaşı, 8 şəhər və rayon qəzeti, universitet televiziya və radiosu da daxil olmaqla, 3 televiziya, 3 radio və 6 nəşriyyat fəaliyyət göstərir, kütləvi informasiya orqanlarında 400-dən artıq əməkdaş çalışır.

Ali Məclis Sədrinin mətbuat orqanlarına olan hərtərəfli qayğısı kütləvi informasiya vasitələrində keyfiyyət dəyişikliyinin yaranmasına səbəb olmuşdur. Bunun nəticəsidir ki, qəzetlərin maddi-texniki bazası mərhələli şəkildə möhkəmləndirilmiş, yaradıcılıq imkanları artırılmışdır. Görülən işlərin davamı kimi 2018-ci ildə “Şərq qapısı”, şəhər və rayon qəzetlərinə, Televiziya və Radio Şurasına ümumi dəyəri 250 min manata yaxın olan müxtəlif avadanlıqlar alınmışdır. 2011-ci ildən etibarən “Şərq qapısı” qəzetinin internet saytı fəaliyyətə başlamış, qəzetin elektron arxiv bazası yaradılmışdır. Sayt 2021-ci ildə yenilənmiş, müasir tələblərə cavab verən formaya salınmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 21 yanvar tarixli Fərmanı ilə Ali Məclisin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsasında “Naxçıvan Muxtar Respublikasının Medianın İnkişafı Agentliyi” publik hüquqi şəxs yaradılmışdır. Ali Məclis Sədrinin 2021-ci il 17 mart tarixli Fərmanı ilə isə Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin əsasında “Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyəti yaradılmışdır ki, bu da televiziya və radio fəaliyyəti sahəsində idarəetmənin təkmilləşdirilməsində yeni mərhələnin başlanmasına imkan vermişdir. Ali Məclis Sədrinin qayğısı ilə Naxçıvan teleradiosuna 2013-2020-ci illərdə 500 min manat dəyərində yayım və çəkiliş avadanlıqları alınmışdır. Bu tədbirlərin davamı kimi 2021-ci ildə daha 70 min manat dəyərində ən müasir efir və çəkiliş avadanlıqları teleradionun istifadəsinə verilmişdir.

Bu gün “Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyəti, o cümlədən “Naxçıvanın səsi” radiosu və “Kanal 35” televiziyası ən müasir rəqəmsal bazaya malikdir. Cəmiyyətin 2016-cı ildə saytı istifadəyə verilmiş və televiziya internet üzərindən yayıma başlamışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Dövlət Teleradiosunun maddi-texniki bazasının möhkəmləndirilməsi və yaradıcılıq işinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” 2018-ci il 6 fevral tarixli Sərəncamına əsasən “Nuhçıxan” İnformasiya Agentliyi yaradılmış, agentliyin saytı hazırlanmışdır. Hazırda “Nuhçıxan” İnformasiya Agentliyi muxtar respublika ilə bağlı ən mühüm informasiya, təhlil və analitik məqalələri, foto və videoinformasiyaları dünyaya çatdırır. Bununla bərabər, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 18 dekabr tarixli Sərəncamı ilə muxtar respublikada təhsillə bağlı teleradio proqramlarının hazırlanması və yayımını təmin etmək, eləcə də sistemli maarifçilik işinin aparılması məqsədilə Televiziya və Radio Verilişləri Redaksiyası Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyinə verilmişdir. Cari ildə təhsil televiziyası və radiosunun yeni internet saytının və müasir dizaynda yaradılan çəkiliş studiyasının təqdimatı olmuşdur. Artıq “Kanal 35” televiziyası və “Naxçıvanın səsi” radiosu təhsillə bağlı televiziya və radio proqramlarını hazırlayan və yayımını həyata keçirən teleradio yayımçısı kimi fəaliyyətini davam etdirir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 18 may tarixli Sərəncamına əsasən muxtar respublikanın mərkəzi icra hakimiyyəti orqanlarında mətbuat və ictimaiyyətlə əlaqələr üzrə vəzifələr təsis olunmuşdur. Bununla da dövlət orqanları ilə kütləvi informasiya vasitələri arasında informasiya siyasətinin həyata keçirilməsində yeni mərhələnin əsası qoyulmuşdur. Eyni zamanda informasiya ehtiyatlarının təhlükəsizliyinin təmin olunması sahəsində konkret istiqamətlər müəyyənləşdirilmişdir.

Muxtar respublikanın şəhər və rayon mərkəzləri ilə yanaşı, kəndlərdə də müasir poçt xidmətlərinin təşkil olunması dövri mətbuatın oxuculara vaxtında çatdırılmasını təmin edir. Bütün bunlar insanların informasiya əldə etmək hüququnun təmin olunması sahəsində görülən işlərin tərkib hissəsidir. Digər bir tərəfdən informasiya cəmiyyəti quruculuğu istiqamətində həyata keçirilən tədbirlər muxtar respublikada internet şəbəkəsinin əhatə dairəsini xeyli genişləndirmişdir. Artıq ən ucqar kəndlərdə belə genişzolaqlı internet, eləcə də IP və rəqəmsal televiziya xidmətləri göstərilir. “Naxtel” mobil operatorunun fəaliyyətə başlaması isə Naxçıvanda 4G internetdən istifadəyə geniş imkanlar açmışdır. Bir zamanlar informasiya blokadasına salınan Naxçıvan bu gün dünyanın hər yerində tanınır, ölkə və dünya mediasında muxtar respublika haqqında məlumatlar yayımlanır. Muxtar respublikada baş verən yeniliklər, sosial-iqtisadi inkişaf, ictimai-mədəni hadisələr, beynəlxalq tədbirlər, diyarımızın turizm potensialı haqqında materiallar geniş tamaşaçı, dinləyici, izləyici və oxucu auditoriyasına çatdırılır. Həmçinin hər il onlarla xarici jurnalist Naxçıvanda olur, qədim diyarla bağlı silsilə yazı və verilişlər hazırlayırlar. Bütün bunlar muxtar respublikada söz və mətbuat azadlığının, demokratik prinsiplərin bərqərar olmasına, kütləvi informasiya vasitələrinin fəaliyyətinə göstərilən dövlət qayğısının bəhrələridir. Sürətli internet təminatı sosial şəbəkələrdən də sərbəst istifadəyə imkan verir. Bu da informasiyaların daha operativ əldə edilməsi ilə yanaşı, muxtar respublikanın tarixi, mədəniyyəti, turizm potensialı və müasir inkişafı haqqında təbliğat işinin aparılmasına da şərait yaradır.

*Ardı 3-cü səhifədə*

Qeyd edək ki, bu gün muxtar respublikada jurnalist kadrlarının hazırlanması, gənc jurnalistlərin işə cəlb olunması da mətbuatın inkişafında mühüm amildir. Naxçıvan Dövlət Universitetində Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrası fəaliyyət göstərir ki, burada təhsil alan tələbələrin gənc jurnalist kimi yetişməsi üçün hər cür şərait var. Belə ki, ali təhsil ocağının Media Mərkəzində fəaliyyət göstərən Universitet televiziyası və "Nuhçıxan" radiosunda gənc jurnalistlər nəzəri biliklərlə yanaşı, ilkin peşə vərdişlərinə də yiyələnir, ixtisaslı kadr kimi Naxçıvan mətbuatına öz töhfələrini verirlər. Ali Məclis Sədrinin bu sahəyə göstərdiyi qayğı sayəsində Universitet televiziyası 2021-ci il fevralın 24-dən etibarən muxtar respublika ərazisində yayıma başlayıb. Həmçinin muxtar respublikada fəaliyyət göstərən kütləvi informasiya vasitələri Jurnalistika ixtisası üzrə təhsil alan tələbələrin hamisi rolunda çıxış etməklə onların peşəkar inkişafında mühüm rol oynayır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə" 2021-ci il 1 iyun tarixli Sərəncamı və təsdiq olunan "Tədbirlər Planı"na əsasən qəzetin 100 illik yubileyi münasibətilə muxtar respublikanın şəhər və rayonlarında silsilə tədbirlərin, "Şərq qapısı" qəzeti və Naxçıvanda mətbuatın inkişafı" mövzusunda elmi konfransın, yubileylə bağlı yaradıcılıq müsabiqəsinin keçirilməsi, həmçinin 2021-ci il dekabrın 18-də "Şərq qapısı" qəzetinin 100 illik yubiley tədbirində Ali Məclis Sədrinin muxtar respublikanın mətbuat orqanlarında fəaliyyət göstərən yaradıcı heyətlə şəxsən görüşü bu sahəyə göstərilən diqqət və qayğının aydın təzahürüdür. Sərəncamın icrası istiqamətində Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi ilə birlikdə "Şərq qapısı" qəzetinin nəşri tarixi və inkişaf yolu" kitabı hazırlanmış, ümumilikdə, yubiley münasibətilə qəzet əməkdaşlarının 6 kitabı işıq üzü görmüş, yaradıcılıq müsabiqəsi keçirilmiş, mətbuatda silsilə məqalələr dərc olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 17 dekabr tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasında mətbuatın inkişafında səmərəli fəaliyyətlərinə görə "Şərq qapısı" qəzetinin 2 əməkdaşı "Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti" fəxri adı, qəzetin və "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyinin 4 əməkdaşı isə "Rəşadətli əməyə görə" nişanı ilə təltif olunmuşlar. Həmin tədbirdə "Şərq qapısı" qəzetinin baş redaktoruna Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri Fərmanı təqdim edilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 17 dekabr tarixli Sərəncamı ilə "Şərq qapısı" qəzeti işçilərinin əməkhaqlarının orta hesabla 20 faiz artırılması isə mətbuat işçilərinə göstərilən diqqət və qayğını bir daha aydın şəkildə ifadə edir. Qəzetin 100 illik yubiley tədbirində Ali Məclisin Sədri demişdir: ***"Qəzetçilik böyük zəhmət, xüsusi səy, peşəkar yanaşma, hadisələri obyektiv dəyərləndirmək, prosesləri qabaqlamaq və düzgün təhlil etmək bacarığı tələb edən sənətdir. Əgər ilk dəfə nəşrə başlayanda "Şərq qapısı" qəzetinin başlıca məqsədi cəmiyyətdə maarifçiliyə, elmi və mədəni tərəqqiyə nail olmaq idisə, bu gün qəzetin qarşısında bununla bərabər, həm də çevik informasiya siyasəti aparmaq, milli dəyərlərimizi, adət-ənənələrimizi təbliğ etmək, Azərbaycanın və onun Naxçıvan Muxtar Respublikasının inkişaf və quruculuq salnaməsini yaratmaq və tarixləşdirmək kimi mühüm vəzifələr durur".*** Ali Məclis Sədrinin dəyərli tövsiyələri muxtar respublika jurnalistlərinin fəaliyyət istiqamətinə çevrilib.

*Naxçıvan mətbuatı Ali Məclis Sədrinin verdiyi dəyərli tövsiyə və tapşırıqları, müəyyənləşdirdiyi fəaliyyət prinsiplərini rəhbər tutaraq bundan sonra da müstəqil dövlət quruculuğu, dövlətçilik, vətənpərvərlik, maarifləndirmək uğrunda yorulmaz fəaliyyət göstərəcək.*

**"Şərq qapısı"**

## Azərbaycan Cüdo Federasiyasının prezidenti idmançılarla görüşüb



"2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"nın icrası istiqamətində muxtar respublikamızda davamlı tədbirlər həyata keçirilir. Əhalidə sağlam həyat tərzinin formalaşdırılması, uşaq və gənclərin idmana cəlbinin kütləvi xarakter almasının təmin edilməsi, bədən tərbiyəsi və idmanın inkişafı ilə bağlı maddi-texniki bazanın müasirləşdirilməsi və gücləndirilməsi daim diqqət mərkəzində saxlanılır.

Naxçıvanda idmanın inkişafı sahəsində həyata keçirilən tədbirlərin davamlılığının təmin edilməsi məqsədilə muxtar respublikada fəaliyyət göstərən federasiyalar tərəfindən mütəmadi olaraq seminarlar, təlim-məşq toplanışları keçirilir, uşaq və gənclərin idmana cəlbinin kütləviləşməsi təmin olunur. Bu tədbirlər sırasında cüdo idman növünün diyarımızda daha da inkişaf etdirilməsi və kütləviliyinin təmin olunması məqsədilə Naxçıvan Muxtar Respublikası Güləş Federasiyası tərəfindən də davamlı təlim-məşq toplanışları, seminarlar, təcrübəli məşqçilərin muxtar respublikaya dəvəti təşkil olunur.



İyul ayının 21-də Azərbaycan Cüdo Federasiyasının prezidenti Rəşad Nəbiyev Naxçıvan Muxtar Respublikasında olub. Səfər çərçivəsində federasiya prezidenti Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının sədri Azər Zeynalovla görüşüb. Görüş əsnasında bu növün muxtar respublikada kütləvi hal alması, gənclər arasında təbliği üçün fikir mübadiləsi aparılıb.

Daha sonra qonaqlar Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində olub, keçirilən məşq prosesini izləyiblər. Məşqdən sonra məşqçi və idmançıların fikirlərini dinləyən Rəşad Nəbiyev muxtar respublikamızda cüdonun daha da kütləviləşdirilməsi ilə uşaq, yeniyetmə və gənclərin həm fiziki, həm də mənəvi cəhətdən sağlam yetişmələrinə dəstəyin göstərilməsinin Azərbaycan Cüdo Federasiyasının əsas məqsədlərindən biri olduğunu qeyd edib. Rəşad Nəbiyev Naxçıvanda cüdonun inkişafı üçün böyük potensial olduğunu vurğulayıb.

Sonra Azərbaycan Cüdo Federasiyasının prezidenti Rəşad Nəbiyev və Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının sədri Azər Zeynalov Olimpiya İdman Kompleksində keçirilən digər idman növləri üzrə məşqləri izləyiblər.

Qeyd edək ki, Azərbaycan Cüdo Federasiyası tərəfindən Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasına müasir tələblərə cavab verən 1 dəst tatami hədiyyə olunub.

**✍ Ceyhun MƏMMƏDOV**

## Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasında qarşıya qoyulan vəzifələr müəyyənləşdirilib və yarım ilin yekunları müzakirə edilib



***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyində altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasından irəli gələn vəzifələrlə bağlı kollegiya iclası keçirilmişdir.***

İclasda nazir, general-leytenant Şamı Abdullayev məruzə edib. Bildirilib ki, hesabat dövründə əhalinin və ərazilərin, istehsal və sosial təyinatlı obyektlərin, yeraltı və yerüstü sərvətlərin fövqəladə hallardan, yanğınlardan qorunması sahəsində qarşıya qoyulan vəzifələr, əsasən, yerinə yetirilib.

Qeyd edilib ki, şəxsi heyətin bilik və bacarıqlarının artırılması məqsədilə 8 potensial təhlükəli obyektdə taktiki-xüsusi təlim və əməli məşğələlər, 38 dəfə gecə məşğələsi, 5 qərargah məşqi görülüb. Yanğın təhlükəsizliyinin etibarlı təmin edilməsi məqsədilə 2 min 330 obyektdə və 30 min 620 şəxsi yaşayış evində yoxlamalar aparılıb, maarifləndirici tədbirlər görülüb. Yanğın cəhətdən təhlükəli olan 185 elektrik, 780 şlanqla çəkilən qaz xətti dəyişdirilib, 261 şofbentipli suqızdırıcının və 1373 tezqatlanan tüstü borusunun istismarı dayandırılıb. Aparılan profilaktik tədbirlərin nəticəsində ötən ilin müvafiq dövrü ilə müqayisədə yanğınlar 50 faiz azalıb.

Diqqətə çatdırılıb ki, ot-taxıl biçininə hazırlıq dövründə 93 kombayn yanğın-texniki baxışdan keçirilib, 1286 nəfər sahibkar və torpaq mülkiyyətçisi təlimatlandırılıb.

Hesabat dövründə 115 müəssisənin fövqəladə hallara hazırlığı, 85 obyektin isə texniki təhlükəsizliyə əməl olunması yoxlanılıb, 116 ictimai yaşayış binasının mülki müdafiə təyinatlı zirzəmisinə baxılıb. 314 texnoloji nəqliyyat vasitəsi dövlət qeydiyyatından keçirilib. 784 qazanxana yoxlanılıb, 129 nəfər qazanxana maşinisti kursuna cəlb olunub. Standartların tələblərinə uyğun olmayan və sənaye üsulu ilə hazırlanmayan qızdırıcı elektrik və qaz cihazlarının və digər texniki avadanlıqların istismarına yol verilməməsi məqsədilə 142 ticarət obyektində yoxlamalar keçirilib.

Diqqətə çatdırılıb ki, muxtar respublikada infeksiyaların, yoluxucu, mövsümi xəstəliklərin yayılmasının və onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə 26 milyon kvadratmetrə yaxın ərazi dezinfeksiya edilib. Çimərlik mövsümündə, ümumilikdə, 12 min 931 nəfər vətəndaşın təhlükəsizliyi təmin olunub, suda boğulma təhlükəsi ilə üzləşən 4 nəfər xilas edilib, ölüm hadisəsi qeydə alınmayıb.

Məruzə ətrafında çıxışlar olub.



*Naxçıvan Muxtar Respublikası Prokurorluğunda 2022-ci ilin birinci yarısının yekunları və qarşıda duran vəzifələrlə bağlı keçirilən kollegiya iclasını Naxçıvan Muxtar Respublikasının Prokuroru, II dərəcəli dövlət ədliyyə müşaviri Səbuhi Şahverdiyev açaraq məruzə ilə çıxış edib.*

Bildirilib ki, 2022-ci il iyulun 16-da keçirilmiş altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasında Ali Məclis Sədrinin qarşıya qoyduğu müvafiq vəzifə və tapşırıqlarının icrasını təmin etmək məqsədilə muxtar respublikanın prokurorluq orqanları digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının daha etibarlı müdafiəsi üçün işlərini yüksək tələblər səviyyəsində qurmalıdırlar.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu 3 aprel və 2021-ci il 25 iyun tarixli sərəncamlarının icrasını təmin etmək məqsədilə Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisasının tələbələri hesabat dövründə Naxçıvan Muxtar Respublikası Prokurorluğunda olublar.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Prokurorluğu 2022-ci ilin birinci yarım ilində ictimai-siyasi sabitliyin, cinayətkarlığa qarşı mübarizə və vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi işində yaxından iştirak etməklə qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsinə çalışıb, vətəndaşların müraciətlərinə baxılması və onların qəbulu işinin düzgün təşkilini diqqət mərkəzində saxlayıb. Belə ki, müraciət etmiş hər bir vətəndaş prokurorlar tərəfindən qəbul edilərək dinlənilib, müraciətlərlə bağlı müvafiq izahlar verilməklə qanuni tədbirlər görülüb.

Diqqətə çatdırılıb ki, müasir dövrdə əhalinin hüquqi maarifləndirilməsi, hüquqi düşüncə və hüquq mədəniyyətinin günün tələbləri səviyyəsində inkişaf etdirilməsi hüquqi dövlətin və vətəndaş cəmiyyətinin formalaşması prosesinə təkan verən ən mühüm amillərdəndir. Muxtar respublikanın prokurorluq orqanları da hesabat dövründə hüquqi maarifləndirmə və profilaktika işini daha da gücləndirərək cinayətkarlığa qarşı mübarizə sahəsində əsas diqqəti qanunvericiliyin izahı, hüquqi maarifləndirməyə və həyata keçirilən profilaktik tədbirlərin kəsərliliyinin artırılmasına yönəldiblər. Belə ki, qanunvericiliyin izahı, əhalinin hüquqi maarifləndirilməsi və hüquqi biliklərin təbliği ilə əlaqədar tədbirlər həyata keçirilib, kütləvi informasiya vasitələrində müxtəlif hüquqi mövzularda çıxışlar edilib. Yeni normativ-hüquqi aktların qəbulunu nəzərə alaraq Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları əhalinin hüquqi maarifləndirilməsi işini bundan sonra da davam etdirəcək, cinayətkarlığın bütün təzahürlərinə və hər cür qanunsuzluqlara qarşı mübarizənin gücləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsi üçün səlahiyyət hədləri daxilində bütün zəruri tədbirlərin görülməsini təmin edəcəkdir.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

* * *

*Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsində keçirilən yığıncağı giriş sözü ilə müəssisənin direktoru Behruz Əzimov açaraq görülən işlər və qarşıda duran vəzifələrlə bağlı məruzə edib.*

Qeyd edilib ki, 2022-ci ilin ilk altı ayında muxtar respublika əhalisinin, idarə, müəssisə və təşkilatların neft və maye qaz məhsullarına olan tələbatını təmin etmək üçün bir sıra məqsədyönlü tədbirlər həyata keçirilib. Bakı Neft Bazası ilə bağlanmış müqaviləyə əsasən ilin sonunadək muxtar respublikaya 42 min ton "A-92" markalı benzin, 125 min ton dizel yanacağı, 30 min ton bitum, 14 min ton mazut, 1300 ton müxtəlif yağların gətirilməsi nəzərdə tutulub. İlin ilk altı ayı ərzində muxtar respublikaya 19 min 378,4 ton "A-92" markalı benzin, 65 min 256,9 ton dizel yanacağı, 8 min 250,6 ton bitum, 29,7 ton müxtəlif növ yağlar gətirilib.



Bildirilib ki, alınan yanacaq muxtar respublikaya İran İslam Respublikasını keçməklə və Bakı-Gürcüstan-Türkiyə marşrutları üzrə daşınır. 2022-ci ilin ilk 6 ayı ərzində Gürcüstan-Türkiyə xətti ilə 4 min 291,8 ton dizel yanacağı və 1077,7 ton "A-92" markalı avtobenzin olmaqla, ümumilikdə, 5 min 369,5 ton neft məhsulları daşınıb. İran İslam Respublikasından keçməklə 6 min 929,7 ton dizel yanacağı, 18 min 251,9 ton "A-92", 8 min 250,6 ton bitum, 29,8 ton müxtəlif növ yağlar olmaqla, ümumilikdə, 87 min 462 ton neft məhsulları gətirilib.

Vurğulanıb ki, müəssisə tərəfindən hesabat dövründə ümumi dövriyyəsi 74 milyon 614 min 912 manat olan müxtəlif növ neft məhsulları satılıb ki, bu da 17 min 357,3 ton avtobenzin, 59 min 356,7 ton dizel yanacağı, 7 min 10,6 ton bitum, 32 ton mazut, 29,7 ton müxtəlif növ yağlardan ibarətdir.

Naxçıvan Muxtar Respublikasının istilik sistemi olmayan təhsil, səhiyyə, mədəniyyət və turizm müəssisələrində 2021-2022-ci illərin payız-qış mövsümü üçün tələb olunan dizel yanacağının yerlərdə təhvil verilməsi üçün əlavə ehtiyat yaradılıb.

Diqqətə çatdırılıb ki, boruların, nasosların, elektrik avadanlıqlarının saz vəziyyətdə olması daim nəzarətdə saxlanılır və lazımi tədbirlər görülür. Müəssisəyə yanacaq daşıyan avtomaşınlar tam saz vəziyyətdədir, kifayət qədər yanacaq ehtiyatı yaradılıb.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

**Xəbərlər şöbəsi**

# Naxçıvan Dövlət Universitetində jurnalist kadrların hazırlanması muxtar respublikada aparılan uğurlu media siyasətinin əsas tərkib hissəsidir

*Hər bir ölkənin bu günü, gələcəyi onun mətbuatı ilə sıx bağlıdır. Bu, təsadüfi deyil. Çünki jurnalistika yalnız cəmiyyətdə ictimai rəy formalaşdırmır, yaxud da qəzet və jurnallar ötüb keçmiş hadisələrin səhifələr üzərində cəm olunmuş hesabatı deyil. Jurnalistika vasitəsilə cəmiyyət bu gün haqqında geniş məlumat öyrənir, keçmişdən xəbərdar olur, gələcək barədə təsəvvürləri formalaşır. Bu gün böyük iftixarla deyə bilərik ki, muxtar respublikamızda milli maraqlara və dövlətçilik ənənələrinə söykənən sağlam mətbuat formalaşıb.*





Muxtar respublika rəhbərinin diqqət və qayğısı ilə istər yaradılan maddi-texniki baza, istərsə də jurnalist kadrların hazırlanması sahəsində görülən işlər qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün geniş imkanlar açır. Bu gün blokada şəraitində yaşayan muxtar respublikanın inkişafı, zəngin tarixi-mədəni irsi və turizm potensialı, ümumilikdə, Naxçıvan həqiqətləri kütləvi informasiya vasitələri tərəfindən geniş ictimaiyyətə təqdim olunur. Bu məsuliyyətli və şərəfli yolda, sözsüz ki, jurnalist kadrların hazırlanması, onların gələcəkdə peşəkar kadr kimi yetişdirilməsi də qarşıya qoyulmuş əsas məsələlərdəndir.

Yüz ildən artıqdır ki, şərəfli mətbuat yolu qət edən Naxçıvan mətbuatının formalaşması və inkişafında muxtar respublikanın qabaqcıl ali təhsil müəssisəsi olan Naxçıvan Dövlət Universitetinin özünəməxsus yeri vardır. Məlumat üçün qeyd edək ki, ali təhsil ocağında 2001-ci ildən yaradılmış Jurnalistika ixtisası, 2002-ci ildən fəaliyyət göstərən Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrası regionda alitəhsilli jurnalist mütəxəssislərin yetişdirilməsində mühüm rol oynayır. Kafedranın keçdiyi tarixi inkişaf yolu barədə oxucularımızı məlumatlandırmaq üçün Naxçıvan Dövlət Universitetinin dosenti, Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrasının müdiri ***Şəhla Şirəliyeva*** ilə həmsöhbət olduq. Müsahibimiz dedi: – Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrası, bütövlükdə, Naxçıvan Muxtar Respublikasının media mühitində öz təsir gücü, tədris, elmi-praktik səviyyəsi ilə seçilir. Ali jurnalistika təhsili üçün baza rolu oynayan bu kafedra milli mətbuatın və jurnalistikanın tarixi təşəkkülünü, inkişaf mərhələlərini, xüsusən onun müasir gerçəkliyə tətbiqini mühüm vəzifə sayır. Jurnalist məzunlarımız muxtar respublikada bu gün ən müxtəlif kütləvi informasiya vasitələrində və məsul vəzifələrdə çalışır, yüksək peşəkarlıq nümayiş etdirirlər. Universitetdə Jurnalistika ixtisasının tələbələri üçün fundamental təcrübi baza, əsl yaradıcılıq laboratoriyası rolu oynayan mətbuat bölməsi, Universitet televiziyası, "Nuhçıxan" radiosu və "Yeni fikir" qəzeti 22 iyul 2011-ci il tarixdən etibarən vahid Media Mərkəzi şəklində fəaliyyət göstərir. Onu da qeyd edim ki, Ali Məclis Sədrinin qayğı və təşəbbüsü sayəsində Naxçıvan Dövlət Universitetinin televiziyası ötən ilin mart ayından həftənin bazar ertəsi, çərşənbə və cümə günləri saat $11^{00}$-dan $15^{00}$-a qədər 4 saatlıq efir vaxtilə muxtar respublika ərazisində yayımlanır. Bu, sözün əsl mənasında, Universitet televiziyası üçün bir inqilabdır. İlk dəfə olaraq ölkədə həyata keçirilən bu layihə tələbə-jurnalistlərdə məsuliyyəti artırmaqla yanaşı, həm də onların universitetdə qazandıqları biliklərin, təhsil səviyyəsinin əyani sübutudur.

Müsahibimiz onu da diqqətə çatdırdı ki, 2001-ci ildən universitetdə Jurnalistika ixtisasının fəaliyyətə başlaması Naxçıvan Muxtar Respublikasında alitəhsilli jurnalist mütəxəssislərin yetişdirilməsi istiqamətində öz bəhrələrini verməkdədir. Bu 21 il ərzində 213 nəfər jurnalist məzunumuz olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri istedadlı və qabiliyyətli jurnalist məzunların iş yerləri ilə təmin olunmasına hər zaman xüsusi qayğı və həssaslıqla yanaşır. Jurnalist məzunlarımız bu gün Azərbaycanın, o cümlədən muxtar respublikanın ən müxtəlif kütləvi informasiya vasitələrində məsul vəzifələrdə çalışır, yüksək peşəkarlıq nümayiş etdirirlər. Onlardan bir neçəsinin adını çəkmək də, hesab edirəm ki, bu dediyimiz fikirləri bir daha təsdiq edəcəkdir. Belə ki, məzunlarımızdan biri – Kazım Kazımov Türkiyə Respublikasının Milli Medya qrupunun Xarici siyasət Departamentinin redaktorudur. Fərid Axundov "CBC Sport" kanalının tanınmış idman jurnalistidir. Məzunlarımızın böyük əksəriyyəti Azərbaycanın tanınmış kütləvi informasiya vasitələrində, informasiya agentliklərində peşəkar jurnalistika fəaliyyəti ilə məşğuldurlar. Muxtar respublikamızın, demək olar ki, kütləvi informasiya vasitələrində məsul vəfizələrdə çalışanların əksəriyyəti, dövlət orqanlarında mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin işçiləri bizim məzunlarımızdır. Qürurverici haldır ki, məzunlarımızdan Səadət Əliyeva, Samir Tarverdiyev, Məmməd Babayev, Çinarə İsmayılova bu gün universitetimizdə jurnalistikanın tədrisi ilə məşğuldurlar, burada yeni jurnalist kadrların yetişməsi yolunda uğurla fəaliyyət göstərirlər. Fikrimizi ümumiləşdirərək deyək ki, Naxçıvan Dövlət Universiteti Jurnalistika ixtisası istiqamətində bakalavr və magistr pillələri üzrə muxtar respublikanın ixtisaslı yerli jurnalist kadrları, teleradio mütəxəssisləri ilə təmin olunmasında böyük rol oynayır. Bununla belə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi ilə bağlı əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" imzaladığı Sərəncam yaradıcılığa ilk qədəm qoyan tələbələrə müxtəlif media orqanlarında öz bacarıqlarını sınamağa imkan açır.



Şəhla müəllim geniş qeyd edir ki, çoxfunksional institut kimi jurnalistika bir sıra konkret məqsədlərə xidmət edir, vəzifələr daşıyır. Lakin peşəkar jurnalist fəaliyyətinin mərkəzində ümumi, vahid bir məqsəd – missiya dayanır: gerçəkliyi əks etdirməklə, insanları doğru-dürüst məlumatlandırmaqla onların, bütövlükdə, cəmiyyətlə optimal münasibətlər qurmasına şərait yaratmaq. Peşəkarlar həmişə dərin biliyi, zəngin təcrübəsi və fərdi yaradıcılıq keyfiyyətləri ilə fərqlənirlər. Bu adı qazanmaq üçün jurnalistin mətbuat, televiziya və radio yaradıcılığının nəzəri əsaslarına dair yaxşı biliyi olmalıdır. O, müasir texnika və texnologiyaya əsaslanan yaradıcılığın praktik vərdişlərini gözəl mənimsəməli, gerçəkliyi əks etdirməyin forma və üsullarını öyrənməli, hər hansı məlumatda söz-təsvir harmoniyasını yaratmağı bacarmalı, bir sözlə, teleradiojurnalistikasının həssas yaradıcılıq qanunlarına yiyələnməlidir. Gələcək jurnalistlərdə bu zəruri peşə keyfiyyətlərinin formalaşması ali təhsil illərindən başlayır. Hesab edirəm ki, Naxçıvan Dövlət Universitetində 27 aprel 2006-cı il tarixdən etibarən fəaliyyət göstərən Universitet televiziyası kafedranın müəllim və tələbələrinin qaynar yaradıcılıq meydanına çevrilib. Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrasının Universitet televiziyasında təşkil etdiyi dərslərdə tələbələr teleradio jurnalistikasının prinsipləri ilə bağlı əyani təcrübə qazanır və sahəvi vərdişlərə yiyələnirlər. Digər sahələrdə olduğu kimi, jurnalistikada da təcrübə olmadan peşəkar kadr kimi yetişmək mümkün deyil. Artıq məzunlarımızın əksəriyyəti nəzəriyyəni praktikada uğurla tətbiq edərək peşəkar jurnalist kimi özlərini təsdiqləyirlər.

Universitetin "Qeyrət" mətbəəsi və "Yeni fikir" qəzeti isə qəzetçilik fəaliyyətinin dərindən mənimsənilməsində müstəsna xidmətlər göstərir, tələbələr birinci kursdan etibarən qəzetçiliyin necə çətin proses olduğunu dərk edir. Müsahibimiz bu istiqamətdə də mövzumuza aydınlıq gətirdi: – Naxçıvan Dövlət Universitetinin birinci sayı 15 oktyabr 1991-ci ildə çap edilmiş "Fikir" adlı qəzeti Azərbaycan ali təhsil sistemində region universitetində çap olunan ilk mətbuat orqanı idi. O zaman Naxçıvan Dövlət Universitetinin mətbu orqanının "Fikir" adlandırılması vaxtilə Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin inspektoru Aleksey Osipoviç Çernyayevskinin həmin seminariyanın Naxçıvandan olan məzunu Əliməmməd Xəlilovla birlikdə Tiflisdə nəşr etdirmək istədikləri, lakin çapına nail ola bilmədikləri "Fikir" adlı maarifçi qəzetin adını yaşatmaq, ənənəsini davam etdirmək məramı ilə əlaqələndirilmişdi. Beləliklə, "Fikir" qəzeti Naxçıvan Muxtar Respublikasında ali məktəb müəllimləri və tələbələrinin mətbuat tribunası kimi 1997-ci ilədək fəaliyyətini davam etdirərək maarifçi düşüncənin inkişafına kömək etmişdir. Sonrakı illərdə Avropa universitetlərinə inteqrasiya sayəsində Qərb ali məktəblərində qəzetlərin deyil, informasiya bülleteni tipli jurnalların nəşr edilməsi təcrübəsinə istinad edilərək Naxçıvan Dövlət Universitetində "Fikir" qəzetinin bazasında eyniadlı informasiya bülleteninin çap edilməsi qərara alınmışdı. 1 aprel 2011-ci ildə ilk nömrəsi işıq üzü görmüş "Yeni fikir" qəzeti 20 il əvvəl Naxçıvan Dövlət Universitetində nəşrə başlamış "Fikir" qəzetinin davamıdır. Bu gün "Yeni fikir" ayda bir dəfə olmaqla, 500 nüsxə tirajla çap olunur. Universitet həyatında baş verən yeniliklər, elmi konfranslar, tədbirlər, xarici əlaqələr və digər xəbərlərin yer aldığı qəzetdə tələbə-müəllim heyətinin müxtəlif janrlarda maraqlı yazıları, publisist düşüncələri, şeir və hekayələrinə də rast gəlmək olar. Qəzet çoxsaylı oxucuları tərəfindən maraqla oxunur. İnanırıq ki, kafedramızın peşəkar müəllim kollektivi bundan sonra da tutduğu bu şərəfli yolda cidd-cəhdlə çalışacaq, muxtar respublika mətbuatına öz layiqli töhfələrini verəcək.

Azərbaycan milli mətbuatının banisi Həsən bəy Zərdabi bir zamanlar yazırdı: *"Camaat qəzet üçün deyil, qəzet camaat üçün olmalıdır"*, böyük demokrat yazıçı, jurnalist Cəlil Məmmədquluzadə isə *"Qələmin müqəddəs vəzifəsi xalqın xoşbəxtliyi yolunda xidmət etməkdir, gərək bu ola hər bir qələm sahibinin amalı" kimi* dəyərli fikirləri söyləməklə sanki qələm dostu Zərdabinin elm-irfanla dolu hikmət bulağından su içirdi. Bu gün milli mətbuatımızın yaranmasının 147-ci ildönümü münasibətilə qəzetimiz vasitəsilə xalqımızı, bütün mətbuat, media nümayəndələrini təbrik edirik. Ümid edirik ki, jurnalistlərimizin qələmləri daim xalqımızın xoşbəxtliyi, milli dövlətçiliyimizin, suverenliyimizin qorunması yolunda xidmət edəcək, mətbuatımızın səviyyəsini daha da yüksəldəcək, Azərbaycan mətbuatı bundan sonra da ölkəmizdə demokratik proseslərin inkişafında, vətəndaş cəmiyyətinin formalaşmasında üzərinə düşən vəzifəni uğurla davam etdirəcək.

**Bülbül QULİYEVA**
***Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisasının IV kurs tələbəsi***

## Qəbul imtahanı keçirilib



İyulun 21-də Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən I və IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı (II cəhd) keçirilib. Respublikanın 16 şəhər və rayonunda təşkil olunan imtahanda I ixtisas qrupu üzrə 21 min 277, IV ixtisas qrupu üzrə 4 min 62 nəfər olmaqla, ümumilikdə, 25 min 339 abituriyent iştirak edib. İmtahanın keçirilməsi üçün, ümumilikdə, 110 imtahan binası, 1921 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 110 ümumi imtahan rəhbəri, 310 imtahan rəhbəri, 2392 nəzarətçi-müəllim, 269 buraxılış rejimi əməkdaşı, 110 bina nümayəndəsi cəlb edilib.

Naxçıvan Muxtar Respublikasında imtahan Naxçıvan şəhər 5, 14 nömrəli və Heydər Əliyev adına tam orta məktəblərin binalarında təşkil edilib. İmtahan saat $10^{00}$-da başlanıb və 3 saat davam edib. 52 zalda keçirilən imtahanda 625 abituriyent iştirak edib. İmtahanın idarə olunmasına 8 rəhbər, 63 nəzarətçi ayrılıb.

İmtahan nəticələri yaxın 2 həftə ərzində elan olunacaq.

**Xəbərlər şöbəsi**

## Məşqçi-müəllimlər üçün seminar



Son illər Naxçıvan Muxtar Respublikası Atletika Federasiyasının tərkibində fəaliyyət göstərən Bədii gimnastika bölməsi dövlət qayğısından yararlanaraq öz fəaliyyət dairəsini genişləndirib və muxtar respublikamızda qısa zaman çərçivəsində inkişaf edən idman növlərindən birinə çevrilib. Federasiyanın tabeliyində fəaliyyət göstərən "Xatun" Bədii Gimnastika İdman Klubu bu gün fəaliyyət dairəsini genişləndirərək Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində, Naxçıvan Qızlar Liseyində, Naxçıvan Dövlət Texniki Kollecində, Naxçıvan şəhər, Şərur və Ordubad rayonlarının Uşaq-gənclər idman məktəblərində 7 qrupu yaradılıb. Hazırda bu qruplarda 200-dən artıq uşaq gimnastikanın sirlərinə öyrənir. Eyni zamanda Babək və Şahbuz rayonlarında da yeni qrupların yaradılması istiqamətində tədbirlər görülür.

Bölmənin kadr potensialını formalaşdırmaq məqsədilə federasiya tərəfindən ümumtəhsil məktəblərində fiziki tərbiyə fənnini tədris edən və gimnastika müəllimi kimi fəaliyyət göstərən müəllimlər üçün seminarlar təşkil olunur, məşqçi-müəllimlərə sertifikatlar təqdim edilir. Həmçinin Bakı şəhərində keçirilən hakimlik və məşqçilik kurslarında iştirak edən bölmənin rəhbəri Humay Qafarova sertifikat və hakimlik vəsiqəsinə layiq görülüb.

Bölmənin məşqçi-müəllimlərinin bilik və bacarıqlarını daha da təkmilləşdirmək, ölkə və beynəlxalq dərəcəli məşqçilərin yetişdirilməsi, nəzəri və praktik biliklərinin genişləndirilməsi məqsədilə Naxçıvanda ilk dəfə olaraq kurslar təşkil edilib. Azərbaycan Gimnastika Federasiyasının məşqçi-müəllimi Züleyxa İsmayılova və xoreoqraf Sənan Mahmudlu tərəfindən keçiriləcək kurslara artıq start verilib. İyul ayının 27-dək davam edəcək kursda əməkdaşlara bədii gimnastika və xoreoqrafiya haqqında ümumi məlumatlar veriləcək, bədii gimnastika alətləri ilə məşqlər praktik olaraq həyata keçiriləcək.

**✍ Ceyhun MƏMMƏDOV**

### İtmişdir

Şərur rayon Maxta kənd sakini Rzayev Katib Səfər oğlunun adına verilmiş JN-218[A] inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

"Cahan Motors" MMC-yə məxsus avtomobilin 85AF588 dövlət nömrə-nişanı itdiyindən etibarsız sayılır.

***

Xəlilova Aytən Həmid qızının adına olan avtomobilin 75BA570 nömrəli dövlət nömrə-nişanı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter ində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 652